**Məzəddin Rauf oğlu Əyyubov**

**UOT:330.3;330.4; JEL:E61;E66;O11.**

# Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialından istifadənin effektivliyinin qiymətləndirilməsi metodologiyası

***Xüllasə***

*Aparılan tədqiqatların məqsədi Azərbaycaının regionlarının iqtisadiyyat sistemlərinin müstəqil inkişaf edə bilmə qabilliyəti əsasında tam təsərrüfat hesabına keçirilməsi ilə əlaqədar özünü maliyyələşdirilməsi və öz xərclərini ödəmələri mexanizminin yaradılması ilə bağlı regionun iqtisadi potensialından istifadənin effektivliyinin qiymətləndirilməsi və gələcək dövrdə Azərbaycan Respublikasının Dölət Büdcəsinin yükünün azaldılmasından ibarətdir. Metodologoya: sistemlərin ümumi nəzəriyyəsi, sistemli təhlil. Tətbiqi əhəmiyyəti: gələcək dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının strateji istiqamətlərinin formalaşdırılmasında istifadə oluna bilər. Nəticə: Naxçıvan Muxtar Respublikası gələcək dövrdə müstəqil olaraq iqtisadi inkişaf xüsusiyyətinə malikdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi: AMEA İqtisadiyyat İnstitutunda ilk dəfə yerinə yetirilən "Azərbaycanın iqtisadi və inzibati rayonlarında iqtisadi potensialdan istifadənin effektivliyi" mövzusu üzrə aparılan tədqiqatların Naxçıvan iqtisadi rayonunu əhatə edir. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat sisteminin müstəqil inkişaf edə bilmə qabilliyəti əsasında respublikanın tam təsərrüfat hesabına keçirilməsi ilə əlaqədar, özünü maliyyələşdirilməsi və öz xərclərini ödəmə mexanizminin yaradılması ilə bağlı iqtisadi potensialından istifadənin effektivliyi qiymətləndirilmişdir. Tədqiqatların metodologiyası müəllif tərəfindən işlənmiş və 2017-2019-ci illər üzrə Azərbaycan Respublikası Dölət Statistika Komitəsi və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş rəsmi ststistik məlumatlar əsasında aprobasiyadan keçirilmişdir.*

***Açar sözlər:*** *iqtisadi potensial, məşğul əhali, məşğul əhalinin demoqrafik yük əmsalı, davamlı inkişaf, iqtisadiyyat sisteminin təhlükəsiz fəaliyyəti, müstəqil inkişaf edəbilmə qabiliyyəti.*



## Giriş

Regional inkişaf sahəsində beynəlxalq (Avropa İttifaqı ölkələri, ABŞ, Çin, Yaponiya, Rusiya, Qazaxstan) təcrübələrin təhlili göstərir ki, müasir dövrdə bu istiqamətdə həyata keçirilən siyasətin paradiqması dəyişir. Belə ki, köhnə paradiqmada əsas problem kimi gəlirlər, məşğulluq, fiziki və bazar infrasrukturu üzrə regional fərqlər önə çəkilirdisə, yeni paradiqmada regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin daha da artırılması, yaşıl iqtisadiyyatın formalaşması, innovativ yanaşmaların tətbiqi kimi məsələlər önə çəkilir. Hazırda Azərbaycanda regionların inkişafı siyasəti əsas etibarilə milli səviyyədə hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standarlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülmüş və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur. Yuxarıda qeyd olunan paradiqma dəyişikliyi prizmasından çıxış edərək Azərbaycanda da regionların inkişafının planlaşdırılmasında və həyata keçirilməsində yerli idarəetmə, o cümlədən yerli özünüidarəetmə orqanlarının və kənd icmalarının daha fəal cəlb olunması yolu ilə hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər nəzərdə tutulur [1]. Müasir dövrdə anklav region olaraq Naxçıvan Muxtar Respublikasının (regionunun) əhalisinin yaşayışının firavanlığının təmin olunması Naxçıvan

*©Məzəddin Rauf oğlu Əyyubov i.f.d. AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, E-mail: mazaddin.eyyubov@gmail.com.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

regionunun iqtisadiyyat sisteminin davamlı və dayanıqlı təhlükəsiz fəaliyyəti ilə bağlıdır. Bu kontekstdə Naxçıvan iqtisadi regionun əhalisinin firavan yaşayışı regionun iqtisadi potensial amillərindən istifadənin effektivliyi səviyyələrindən asılıdır. Təqdim olunan məqalə AMEA İqtisadiyyat İnstitutunda ilk dəfə yerinə yetirilən “Azərbaycanın iqtisadi və inzibati rayonlarında iqtisadi potensialdan istifadənin effektivliyi” mövzusu üzrə aparılan tədqiqatlarının Naxçıvan iqtisadi regionunu əhatə edir. Aparılan tədqiqatların məqsədi Azərbaycanın regionlarının iqtisadiyyat sistemlərinin müstəqil inkişaf edə bilmə qabilliyəti əsasında tam təsərrüfat hesabına keçirilməsi ilə əlaqədar özünü maliyyələşdirilməsi və öz xərclərini ödəmələri mexanizminin yaradılması ilə bağlı regionun iqtisadi potensialından istifadənin effektivliyinin qiymətləndirilməsi və gələcək dövrdə Azərbaycan Respublikası Dölət Büdcəsinin yükünün azaldılmasından ibarətdir. Mövzunun metodologiyası müəllif tərəfindən işlənmiş və 2017-2019-ci illər üzrə Azərbaycan Dölət Statistika Komitəsi və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş rəsmi ststistik məlumatlar əsasında aprobasiyadan keçirilmişdir. Hesab edirik ki, təqdim olunan məqalə gələcək dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının strateji istiqamətlərinin formalaşdırılmasında istifadə oluna bilinər.

**Naxçıvan Muxtar Respublikasının iqtisadi potensial amilərinin qısa xülasəsi**
Regionların iqtiadi potensial amillərini regionun məhsuldar qüvvələri (ərazisi və iqlim şəraiti, əhalisi və əmək ehtiyyatları, yararlı torpaq ehtiyyatları, əsas istehsalat fondları, məhsulların istehsalı prosesinə cəlb olunmuş mineral-xammal ehtiyyatları və maddi dövriyyə vəsaitləri) ilə yanaşı regionda məhsulların istehsalı prosesinə cəlb olunmuş pul ehtiyyatları təşkil edirlər.

İqlim şəraiti. Naxçıvan Muxtar Respublikasının ümumi ərazisi 5,503 min km$^2$ təşkil edir. Naxçıvan regionunu özünün kəskin kontinental iqlimi ilə Azərbaycanın digər fiziki-coğrafi regionlarından fərqlənir. Ərazidə iqlimi yaradan əsas amillər – havanın temperaturu, günəş radiasiyası və əsən küləklərin enerjisindən istifadə imkanları, atmosfer dövranının mürəkkəbliyi, relyefin isə xeyli müxtəlif olması və digər amillərlə səciyyələnir [2]. Havanın orta illik temperaturu Arazboyu düzənlikdə və alçaq dağlıq qurşaqda 14-12 dərəcə, orta dağlıq qurşaqda 8-5 dərəcə, yüksək dağlıq qurşaqda isə (2500-3000 metr) 2-1 dərəcə arasında dəyişir. İlin ən soyuq ayının (yanvar) orta aylıq temperaturu Arazboyu düzənlikdə və alçaq dağlıq hissədə mənfi 6-10 dərəcə, ilin əsas isti ayının (iyul) orta aylıq temperaturu 28-24 dərəcə arasında dəyişir. Günəş radiasiyasının gərginliyi günəşli saatların miqdarı ilə hesablanır. Naxçıvanın düzənlik və qismən alçaq dağlıq sahələrində günəşli saatların orta illik miqdarı 2800 saata bərabərdir [3]. Apardığımız hesablamalar göstərir ki, Naxçıvan regionunun ərazisində yerin hər 1,0 m$^2$ səthinə çatan günəş radiasiyasının gərginliyi orta hesabla 70,0 vatt təşkil edir. Naçıvan regionunun ərazisində müşahidə edilən küləklər əsasən yerli küləklərdir. Onların istiqaməti çox hallarda relyef quruluşundan asılıdır. Muxtar respublika ərazisində ilin soyuq dövründə əsasən şimal-şərq, şimaı-qərb, ilin isti dövründə isə qərb və cənub küləkləri əsir. Regionun ərazisində ən güclü küləklər iyul-avqust aylarında şərq küləkləri, ən zəif küləklər isə şimal küləkləridir. Arazətrafı düzənlikdə ilin soyuq dövründə küləklərin 1-2 m/san, iyul-avqust aylarında isə 3-5 m/san çatır [4]. Muxtar Respublikanın ərazisində yağıntı qeyri-bəyabər paylanmışdır. Arazətrafı maili düzənliklərdə də orta illik yağıntının paylanması eyni dərəcədə deyildir. Orta illik yağıntının miqdarı 210 mm – 276 mm intervalında dəyişir.

Əmək ehtiyyatları. Əhalinin işləmək qabiliyyəti olan hissəsi başa düşülür. Onların tərkibinə ancaq iqtisadi cəhətdən fəal əhali deyil, həm də hazırda işləməyən və iş axtarmayan əmək qabiliyyətli şəxslərin digər kateqoriyaları, o cümlədən istehsalatdan ayrılmaqla təhsil alanlar da daxil edilir. Regionun əmək ehtiyyatları iqtisadi potensialını ərazidə 16-65 yaş



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hədlərində yaşayan əhali qismi təşkil edirlər. Statistiik məlumatlar göstərir ki, [5] 2020-ci ildə regionda yaşayan əhalinin orta illik sayı 460.6 min nəfərə çatmışdır. Apardığımız hesablamar göstərir ki, regionda 16-65 yaş hədlərində olan şəxslərin sayı 319,9 min nəfər olmaqla əhalinin 69,4%-ini təşkil etmişdir. Hesablamalar göstərir ki, 2020-ci ildə əmək ehtiyyatları 2015-ci ilə nisbətən 13,3 min nəfər və ya 4,3% artmışdır. Müəyyən edilmişdir ki, 2015-2020-ci illər dövründə regionda əmək ehtiyyətlarının orta illik sayı artım meyilli olmuş və $\tilde{e} = 2{,}7055 \cdot t + 303{,}980$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 2,706 min nəfər artmışdır. Belə ki, 2015-ci ildə əmək eytiyyatlarının sayı 2014-cü ilə nisbətən 2,622 min nəfər, 2016-cı ildə 2015-ci ilə nisbətən 2,722 min nəfər, 2017-ci ildə 2016-cı ilə nisbətən 2,794 min nəfər, 2018-ci ildə 2017-ci ilə nisbətən 2,654 min nəfər, 2019-cu ildə 2018-ci ilə nisbətən 3,076 min nəfər artməşdır. Hesablamalar göstərir ki, 2020-ci iləd əmək ehtiyyatlarının sayı 2019-cu ilə nisbətən artımı 2,012 min nəfər olmuşdur.

Məşğul əhali. Regionda iqtisadi əmək fəaliyyətilə məşğul olan əhali qismi regionun əhalisinin ictimai faydalı hissəsini təşkil edirlər. Naxçıvan DSK-nin məlumatları göstərir ki, 2020-ci ildə regionun iqtisadiyyatında məşğul olanların sayı 251,3 min nəfər olmaqla əhalinin 54,6%-i təşkil etmişdir. Həmçinin hesablamalar göstərmişdir ki, 2020-ci ildə regionun iqtisadiyyatında məşğul olanların sayı əmək ehtiyyatlarının 75,2%-i səviyyəsində olmuşdur. 2020-ci ildə regionda məşğul əhalinin sayı 2015-ci ilə nisbətən 20,3 min nəfər və ya 8,8% artmışdır. Tədqiqatlar göstərir ki, 2015-2020-ci illər dövründə regionda məşğul əhalinin orta illik sayı artım meyilli olmuş və $\acute{m} = 4{,}283 \cdot t + 224{,}630$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 4,3 mln nəfər artməşdır. Əmək ehtiyyatları və məşğulluqla bağlı təqdim olunan tənliklər göstərir ki, 2015-2020-ci illərdə regionda əlavə iş yerlərinin açılması ilə əlaqədar hər il artan əmək ehtiyyatları məşğulluqla tam təmin olunmuşlar.



Əsas kapital. İqtisadiyyat sisteminin əsas kapitalını torpaq ehtiyyatları ilə yanaşı məhsulların istehsalı prosesində istismar olunan əsas istehsalat fondları təşkil edirlər.

Torpaq ehtiyyatları. Naxçıvan Muxtar Respublikasının (Naxçıvan regionunun) ümumi ərazisi 5,503 min km$^2$, ümumi torpaq eyniyyatı 536,3 min ha, o cümlədən kənd təsərrüfatında məhsulların yetişdirilməsinə cəlb oluna bilinən yararlı torpaq ehtiyyatı 182,5 min ha təşkil edir. Regionda kənd təsərrüfatında istifadə oluna bilinən torpaq ehtiyyatlarının bir qismi kənd təsərrüfatında əkinçilik (bitkiçilik, bostançılıq, bağçılıq) məhsulların yetişdirilməsinə cəlb olunurlar. İstifadə oluna bilinən torpaq ehtiyyatlarının qalan qismi isə heyvandarlıq sahəsində istifadə olunan otlaq və örüşlərdən ibarətdir. Regionda kənd təsərrüfatına yararlı torpaq ehtiyyatı ümumi torpaq eytiyyatlarının 33,5%-ini təşkil edirlər [6]. Statistik məlumatlar göstərir ki, 2015-ci ildə kənd təsərrüfatına yararlı torpaq ehtiyyatlarının 61,4 min ha sahəsi və ya 34,2%-i əkinçilik məhsullarının yetişdirilməsinə cəlb edilmişdir. Hesablamalar göstərmişdir ki, 2015-2020-ci illər dövründə əkinçilk məhsullarının yetişdirilməsinə cəlb edilmiş torpaq sahələri $\tau_{ə} = 0{,}420 \cdot t + 60{,}661$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 0,4 min ha artaraq, 2020-ci ildə 63,4 min ha sahə səviyyəsinə yüksəlmişdir. Həmçinin hesablamala müəyyən edilmişdir ki, 2015-ci ildə kənd təsərrüfatına yararlı torpaq ehtiyyatlarının 118,3 min ha sahəsi və ya 65,8%-i heyvandarlıq məhsullarının yetişdirilməsini təmin edən otlaqlar və örüş sahələrini əhatə etmişdir. 2015-2020-ci illərdə əkinçilik məhsullarının yetişdirilməsinə cəlb edilmiş sahələrin artması ilə əlaqədar, 2020-ci ildə otlaqlar və örüş sahələri 2015-ci ilə nisbətən (-1,7)% azalaraq 116,4 min ha təşkil etmişdir.

Əsas istehsalat fondları. Regionun əsas istehsalat fondlarına məhsul istehsalı prosesində istismar olunan binalar, qurğular, güc avadanlıqları, texnoloji maşın və mexanizmlər, nəqliyyat və rabitə vasitəıləi, idarəçilk vasitələri və digər avadanlıqlar aid olunurlar. Statistik məlumatlara əsasən, 2020-ci ildə sənaye sahəsində məhsul istehsalı prosesinə cəlb olunmuş əsas kapitalın (əsas istehsalat fondlarının) dəyəri 898,4 mln manat, o cümlədən binaların

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dəyəri 203,9 mln manat, qurğuların dəyəri 340,9 mln manat, maşın və avadanlıqların dəyəri 219,6 mln manat, nəqliyyat vasitələrinin dəyəri 107,1 mln manat, digər kateqoriya əsas kapitala aid olan istehsal vasitələrinin dəyəri 42,6 mln manat səviyyəsində olmuşdur [7].

Naxçıvan DSK-nin məlumatları əsasında [8] aparılmış hesablamalar göstərmişdir ki, 2015-2020-ci illərdə regionda əsas istehsal fondlarının dəyəri artım meyilli olmaqla $\dot{f}_S = 8{,}502 \cdot t + 845{,}0$ xətti tənliyinə uyğun olara, hər il orta hesabla 8,5 mln manat artmışdır. Müəyyən edilmişdir ki, 2015-ci ildə əsas istehsalat fondlarının dəyəri 2014-cü ilə nisbətən 9,3 mln manat və ya 1,1%, 2016-cı ildə 2015-ci ilə nisbətən 10,7 mln. manat və ya 1,1%, 2017-ci ildə 2016-cı ilə nisbətən 12,3 mln manat və ya 1,4%, 2018-ci ildə 2017-ci ilə nisbətən 3,0 mln manat və ya 0,3%, 2019-cu ildə 2018-ci ilə nisbətən 1,6 mln manat və ya 0,2%, 2020-ci ildə 2019-cu ilə nisbətən 14,6 mln manat və ya 1,6 % tartmışdır. Lakin, hesablamalar göstərir ki, hər il əsas istehsalat fondlarının dəyərinin əvvəlki ilə nisbətən artımları azalma meyilli olmuşdur. Müəyyən edilmişdir ki, hər il əsas istehsalat fondlarının dəyəri $\Delta F_S = -0{,}2952 \cdot t + 9{,}6297$ xətti tənliyinə uyğun olaraq, əvvəlki ilə nisbətən orta hesabla (-295,2) min manat azalmışdır.

Mineral-xammal ehtiyyatları. Naxçıvan iqtisadi regionuda təkibində mis, mis-profir, mis-molibden, qurğuşun-sink, kadmium, qallium, gümüş, qızıl filiz yataqları mövcuddur. Bu yataqların bir hissəsi sənaye əhəmiyyətli yataqlar hesab olunurlar. Göstərilənlərlə yanaşı, respublikanın ərazisində duz, tikinti materialları ilə, həmçinin mineral su ehtiyyatları ilə zəngin yataqlar mövcuddur [9].

**Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı xüsusiyyətləri**

Regionlarda (ölkələrdə) əhalinin yaşayışının təmin olunması məqsədilə mineral-xammal və torpaq ehtiyyatlarından, əsas fondlardan istifadə etməklə yanaşı, əmək ehtiyyatlarını cəlb etməklə məhsullar istehsal edilir, əhaliyə xidmətlər göstərilir.

Məhsulların istehsalı prosesi. Azərbaycan DSK-nin məlumatları əsasında [10] aparılan hesablamalar göstərir ki, Regionda 2020-ci ildə faktiki qiymətlərdə bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcmi 2015-ci ilə nisbətən 21,9% artmışdır. Hesablamalar göstərir ki, 2015-ci ildə Naxçıvan regionunda faktiki qiymətlərdə məhsul buraxışının ümumi həcmi 2014-cı ilə nisbətən 6,1%, 2016-cı ildə 2015-ci ilə nisbətən 8,9%, 2017-ci ildə 2016-cı ilə nisbətən 4,4%, 2018-ci ildə 2017-ci ilə nisbətən 2,6%, 2019-cu ildə 2018-ci ilə nisbətən 2,4% artmışdır. İilikin statistik məlumatlara əsasən 2020-ci ildə məhsul buraxılışının ümumi həcminin 2019-ci ilə nisbətən artımı 2,1% səviyyəsində olmuşdur.

Göstərilənlərlə yanaşı, hesablamalar göstərir ki, regionda qiymət indekslərini [11] nəzərə qalmaqla, 2020-ci il müqayyisəli qiymətlərində 2020-ci ildə bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcmi 2015-ci ilə nisbətən cəmi 11,5% artmış, hər il məhsul buraxılışının ümumi həcmlərinin artımları titrəyişli dəyişkən xüsusiyətə malik olmuşlar. Belə ki, 2015-ci ildə müqayyisəli qiymətlərdə regionda məhsul buraxılışının ümumi həcmi 2014-cü ilə nisbətən 2,6%, 2016-cı ildə 2015-ci ilə nisbətən 8,1% təşkil etsə də, 2017-ci ildə 2016-cı ilə nisbətən 0,5%, 2018-ci ildə 2017-ci ilə nisbətən 2,7%, 2019-cu ildə 2018-ci ilə nisbətən 0,2% təşkil etmişlər. Regionda 2020-ci ildə bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcmi 2019-cu ilə nisbətən (-0,3)% azalaraq, 2019-cu il səviyyəsinin 99,7%-ni təşkil etmişdir. Regionun iqtisadiyyatı sistem olaraq maddi məhsullar istehsalı (kənd təsərrüfatı, sənaye, tikinti) sahələrinə və xidmət (nəqliyyat, rabitə, ticarət, turizm, sosial xidmətlər, dövlət xidmətləri və digər) sahələrinə ayrılırlar. Statistik məlumatlar əsasında [12] aparılan hesablamar göstərir ki, Muxtar Respublikada 2015-2020-ci illər dövründə bütün pul-əmtəə kanallarında məhsulların Y ümumi buraxılışının struktur eyniliyi $Y = 0{,}624 \cdot Y_M + 0{,}376 \cdot Y_X$ , və ya $Y = 0{,}136 \cdot Y_{KT} + 0{,}285 \cdot Y_S + 0{,}203 \cdot Y_T + 0{,}066 \cdot Y_{XƏ} + 0{,}311 \cdot Y_{XD}$ xətti tənliklər



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sisteminə uyğun olmuşdur. Tənliklər sistemi onu ifadə edir ki, tədqiqat dövründə bütün pul-əmtəə kanallarında məhsulların Y ümumi buraxılışının 62,4%-i maddi istehsalat sahələrində istehsal olunmuş məhsulların $Y_M$ həcmi, o cümlədən 13,6%-i kənd təsərrüfatı məhsullarının $Y_{KT}$, 28,5%-i sənaye məhsullarının $Y_S$, 20,3%-i tikinti məhsullarının $Y_T$ həcmləri təşkil etmişlər. Məhsulların ümumi buraxılışının qalan 37,6% həcmini isə xidmət sahələrində göstərilmiş işlərin $Y_X$ həcmlərini, o cümlədən 6,6%-i əhaliyə göstərilmiş ödənişli xidmətlərin $Y_{XƏ}$ həcmləri, 31,1%-i isə digər xidmət növlərinin $Y_{XD}$ həcmləri təşkil etmişdir.

Məhsulların istehsalı sahələrində sərvətin artımı. Məhsulların istehsal prosesi ölkənin (regionun) sərvətini artıran prosesdir və sərvətin artması regionun iqtisadiyyat sisteminin maddi məhsullar istehsalı (kənd təsərrüfatı, sənaye, tikinti) sahələrində baş verir. Hesablamalar göstərir ki, 2020-ci ildə regionda maddi məhsul istehsalı sahələrində faktiki qiymətlərdə istehsal olunmuş ümumi məhsul istehsalı həcmi 2015-ci ilə nisbətən 298,9 mln manat və ya 15,0%, o cümlədən kənd təsərrüfatı saəsində 135,4 mln manat və ya 33,7%, sənaye sahəsində 119,6 mln manat və ya 13,0%, tikinti sahəsində isə 43,9 mln manat və ya 6,6% artmışdır. Müəyyən edilmişdir ki, 2015-2020-ci illər tədqiqat dövründə faktiki qiymətlərdə maddi istehsal sahələrində məhsul istehsalının ümumi həcminin 1,0% artımı 19,9 mln manat, o cümlədən, kənd təsərrüfatı sahəsində məhsul istehsalı həcminin 1,0% artımı 4,0 mln manat, sənaye sahəsində məhsul istehsalı həcminin 1,0% artımı 9,2 mln manat, tikinti sahəsində isə məhsul istehsalı həcminin 1,0% artımı 6,6 mln manat təşkil etmişdir. Beləliklə, regionda sənaye sahəsində məhsul istehsalı həcminin artırılması kənd təsərrüfatı sahəsinnə nisbətən 2,3 dəfə, tikinti sahəsinə nisbətən isə 1,4 dəfə daha çox effektlidir.



Beynəlxalq ticarədə sərvətin artımı. Regionda (ölkədə) istehsal olunmuş məhsulların bir qismi daxili bazara, məhsulların artıq qalan qismi isə xarici ölkələrə ixrac olunurlar. Həmçinin, regionun daxili bazarında çatışmayan məhsullar xarici ölkələrdən idxal olunurlar. Xarici ölkələrlə ticarət əlaqələrində yaranan müsbət ixrac-idxal saldosu ölkənin milli sərvətinin beynəlxalq ticarətdə artım hissəsini ifadə edər.  Azəebaycan DSK-nin və Naxçıvan DSK-nin məlumatları [13] əsasənda aparılmış hesablamalar göstərir ki, 2015-2020-ci illər dövründə Naxçıvan regionunda məhsulların ümumi braxılışı həcminin 19,1%-i regiondan xarici ölkə bazarlarına çıxarılmışdır. Həmçinin, xarici ölkə baxarlarından regiona idxal edilmiş məhsulların həcmi regionda istehsal olunmuş məhsulların 2,7%-ni təşkil etmişdir. Müəyyən edilmişdir ki, tədqiq olunan dövrdə Naxçıvan regionunun xarici ölkələrlə ticarət əlaqələrində sərvətinin artan hissəsi 3362,5 mln manat təşkil etmişdir. Belə ki, 2015-ci ildə xarici ölkələrlə ticarət əlaqələrində ixrac-idxal saldosu 324,7 mln manat, 2016-cı ildə 598,3 mln manat, 2017-ci ildə 665,6 mln manat, 2018-ci ildə 620,7 mln manat, 2019-cu ildə 551,2 mln manat səviyyələrində olmuşdur.

Göstərilələrlə yanaşı, hesablamalar göstərir ki, 2015-2020-ci illər dövründə xarici ölkələrlə ticarət əlaqələrində hər il ixrac-idxal saldosunun əvvəlki ilə nisbətən dəyişməsi azalan xüsusiyyətinə malik olmuşdur. Belə ki, 2015-ci ildə ixrac-idaxl saldosunun həcmi 2014-cü ilə nisbətən 30,6 mln manat, 2016-cı ildə 2015-ci ilə nisbətən 273,7 mln manat, 2017-ci ildə ixrac-idxal saldosu 2016-cı ilə nisbətən 67,2 mln manat artsa da, 2018-ci ildə ixrac-idxal saldosu 2017-ci ilə nisbətən (-45,0) mln manat, 2019-cu ildə 2018-ci ilə nisbətən (-18,9) mln manat, 2020-ci ildə isə 2019-cu ilə nisbətən (-50,6) mln manat azalmışdır. Müəyyən edilmişdir ki, tədqiqat dövründə Naxçıvan regionunun xarici ölkələrlə ticarət əlaqələrində regionun $Y_{MS}$ milli sərvətinin həcmləri $\tilde{y}_{MS} = -39{,}883 \cdot t + 182{,}430$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla (-39,9) mln manat azalmışdır.

Əhalinin gəlirləri. Regionun əhalisinin yaşayışının firavanlığı səviyyəsi göstəricilərindən biri əhalinin gəlirləri göstəricisidir. Əhalinin ümumi gəlirlərini muzdla aldığı əmək haqqları, sahibkarləq fəaliyyətindən əldə etdiyi gəlirlər, ev təsərrüfatlarından əldə etdiyi gəlirlər, dövlət

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fondları tərəfindən ödəlinən təqaüdlər, sosial müavinətlər, həmçinin xarici ölkələrdən aldıqları transferlər ödənişləri təşkil edirlər. Azərbaycan DSK-nin məlumatları [14] əsasında aparılan hesablamalar göstərir ki, Naxıvan Muxtar Respublikasının əhalisinin 2015-ci ildə gəlirləri 2014-cü ilə nisbətən 1,6% artaraq 1804,2 mln manat, 2016-cı ildə 2015-ci ilə nisbətən 1,2% artaraq 1825 mln manat, 2017-ci ildə 2016-cı ilə nisbətən 1,1% artaraq 1845,8 mln manat, 2018-ci ildə 2017-ci ilə nisbətən 1,1% artaraq 1866,1 mln manat, 2019-cu ildə 2018-ci ilə nisbətən 1,3% artaraq 1890,4 mln manat, 2020-ci ildə isə 2019-cu ilə nisbətən 1,2% artaraq 1913,2 mln manat səviyyələrində olmuşdur.

Müəyyən edilmişdir ki, regionda hər bir orta ststistik nəfərin orta aylıq gəlirləri 2015-ci ildə 2014-cü ilə nisbətən 0,6% artaraq 341,9 manat, 2016-cı ildə 2015-ci ilə nisbətən 0,1% artaraq 342,3 manat, 2017-ci ildə 2016-cı ilə nisbətən 0,05% artaraq 342.5 manat, 2018-ci ildə 2017-ci ilə nisbətən 0,3% artaraq 343,4 manat, 2019-cu ildə 2018-ci ilə nistətən 0,6% artaraq 345,4 manat, 2020-ci ildə isə 2019-cu ilə nisbətən 0,4% artaraq 346.9 manat səviyyəsində olmuşdur. Lakin, nəzərə alsaq ki, 2015-ci ildə məhsulların qiymətlərinin 2014-cü ilə nisbətən (-1,0)% azalsa da, 2016-cı ildə məhsulların qiymətlərinin 2015-ci ilə nisbətən 3,4% artması, 2017-ci ildə 2016-cı ilə nisbətən 0,7% artması, 2018-ci ildə 2017-ci ilə nisbətən 3,9% artıması, 2019-cu ildə 2018-ci ilə nisbətən (-0,01)% azalsa da, 2020-ci ildə 2019-cu ilə nisbətən 2,2% artmasl əhalinin gəlirlərinin effektivliyini azaltmışdır.

Məhsul istehsalı sahələrinnə yönəldilən investisiyalar. Regionun iqtisadi inkişafının davamlılığı mütəmadi olaraq regionun maddi məhsulları istehsalı sahələrinə yönəldilən investisiyalarla bağlıdır. İnvestiya qoyuluşları məhsul istesalı və xidmət sahələrində istismar olunan aşılanmış əsas kapitalın (əsas fondların) yenilənməsi ilə yanaşı, məhsulların istehsalı, görülən işlərin və göstərilən xidmətlərin həcmlərinin artırılması məqsədilə iqtisadiyyat sahələrinin miqyasının genişləndirilməsi məqsədilə həyata keçirilir. Statisirk məlumatlara əsasən müəyyən edilmişdir ki, [15] 2015-2020-ci illər dövründə regionun iqtisadiyyatına yönəldilmiş investisiyaların 40,9%-i regionun maddi məhsullar ilstehsalı sahələrinə yönəldilmişdir. Göstərilənlərlə yanaşı, maddi məhsullar istehsalı sahələrinə yönəldilmiş investisiyaların 18,3%-i kənd təsərrüfatı məhsullarının yetişdirilməsi sahəsinə, 71,7%-i sənaye məhsullarının istehsalı sahələrinə, 10,0%-i isə tikinti işlərinin görülməsi sahələrinə yönəldilmişdir. Həmçinin, hesablamalar göstərmişdir ki, tədqiq olunan 2015-2020-ci illərdə regionda xidmət (nəqliyyət, rabitə, ticarət və digər xidmətlər) və qeyri-istehsal (mənzil tikintisi, səhiyyə, təhsil, kommunal, sosial təminat, dövlət idarəetmə və digər) sahələrinə yönəldilmiş investisiyalar bütün investisiyaların 59,1%-i səviyyəsində olmuşdur. Müəyyən edilmişdir ki, tədqiq olunan 2020-ci illərdə maddi məhsul hstehsalı sahələrinə yönəldilən ivestisiyalar 2020-ci ilə nisbətən 14,8% artmışdır. Hesablamalar göstərmişdir ki, 2015-2020-ci illər tədqiqat dövründə maddi məhsul istehsalı sahələrinə yönəldilmiş investisiyalar $\tilde{\imath}_M = 10{,}484 \cdot t + 374{,}760$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 10,5 mln manat artmışdır. Tədqiqatlar göstərmişdir ki, 2020-ci illərdə maddi məhsullar istehsalı sahələrinə yönəldilən investisiyalar 2015-ci ilə nisbətən 14,8%, kənd təsərrüfatı sahəsinə yönəldilən investisiyalar 11,0%, tikinti işlərinin görülməsi sahəsinə yönəldilən investisiyalar 4,5 dəfə artmışdır. Göstərilənlərlə yanaşı müəyyən edilmişdir ki, 2020-ci ildə sənaye sahəsinə yönəldilən investisiyalar 2015-ci ilə nisbətən (-2,4)% azalmışdır. Hesablamalar göstərir ki, 2015-2020-ci illər dövründə kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə yönəldulən investisiyalar $\tilde{\imath}_{KT} = 0{,}0786 \cdot t + 74{,}984$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 78,6 min manat artmişdir. Həmçinin, tikinti işlərinin görülməsi sahəsinə yönəldilən investsiyalar $\tilde{\imath}_T = 12{,}472 \cdot t - 2{,}6117$ xətti tənliyinə uyğun olaraq hər il orta hesabla 12,5 mln manat artmışdır. Göstərilənlərlə yanaşı, 2015-2020-ci illər dövründə sənaye məhsullarının istehsalı sahəsinə yönəldilmiş



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

investisiyalar azalma meyilli olmuş və $\tilde{i}_S = -2{,}0664 \cdot t + 302{,}39$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla (-2,1) mln manat azalmşdır.

**Naxçıvan Muxtar Respublikasının iqtisadi potensial amillərindən istifadənin effektivliyinin xarakteristikası**

Regionun iqtisadi potensial amillərindən istifadənin effektivliyi aşağıdakı əsas göstəricilər vasitəsi ilə qiymətləndirilir.

Məşğul əhalininm məhsuldarlığı. Məşğul əhalinin məhsuldarlığı göstəricisi, bir nəfər məşğulun iqtisadiyyat sahəsində istehsal etdiyi məhsul həcmini ifadə edir. Müəyyən edilmişdir ki, regionda 2015-ci ildə iqtisadiyyat sahəsində məşğul olan hər bir nəfər orta hesabla 13093,7 min manat məhsul istehsal etmişdir. 2020-ci ildə bir nəfər məşğulun istehsal etdiyi məhsul həcmi 2015-ci ilə nisbətən 1581,4 min manat və ya 12,1% artaraq 14675,1 min manat səviyyəsinə yüksəlmişdir. Hesablamalar göstərmişdir ki, 2015-2020-ci illərdə hər bir məşğulun məhsuldarlığı $\acute{m}_M = 268{,}150 \cdot t + 13370{,}0$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla 268,2 mln manat artmışdır. Bu onu ifadə edir ki, 2015-2020-ci illərdə regionda məşğul əhalidən istifadənin effekti artmışdır.

Məşğul əhalinin demoqrafik yük əmsalı. Məşğul əhalinin demoqrafik yük əmsalı regionda hər bir nəfər iqtisadiyyat sahəsində məşqul olanın üzərinə regionun neçə nəfər əhali vahidinin düşməsini göstərir. Bu göstərici regionun gələcək dövrdə iqtisadi inkişafı istiqamətlərinin müəyyənləşdirilməsində əmək ehtiyyatlarının iqtisadiyyatın bütün pul-əmtəə kanallarında məhsulların ümumi buraxılışına cəlb edilməsi probleminin (məşğulluq problemi) həllində istifadə olunur və regionda məşğul əhalinin vergi yükünün müəyyənləşdirilməsinin baza prinsiplərindən birini təşkil edir. Statistik məlumatlara əsaən, [16] Naxçıvan regionunda 2015-ci regionda əhalinin sayı 442,1 min nəfər, məşğul əhalinin sayı isə 231,0 min nəfər olmuşçdur. Bir məşğulun demoqrafik yük əmsal 1,914 səviyyəsində olmuşdur. Göstərici onu ifadə edir ki, regionda 2015-ci ildə hər 1000 nəfər məşul əhali qisminin üzərinə regionun 1914 nəfər əhali yükü düşmüşdür. Göstərilənlərlə yanaşı, regionda 2020-ci ildə əhalinin sayı 460,6 min nəfər, məşğul əhali qisminin sayı isə 251,3 min nəfər təşkil etmişdir. Müəyyən edilmişdir ki, regionda bir məşğulun demoqrafik yük əmsalı 1,833 səviyyəsində olmuşdur. Göstərici onu ifadə edir ki, regionda 2020-ci ildə hər 1000 nəfər məşul əhali qisminin üzərinə regionun 1833 nəfər əhali yükü düşmüşdür. Məşğul əhalinin demoqrafik yükünün tədiqatları göstərir ki, 2020-ci ilə məşğul əhalinin demoqrafik yük əmsalı 2015-ci ilə nisbətən (-4,2)% azalalraq 1,914 səviyyəsindən 1,833 səviyyəsinə enmişdir. Bu hal onu ifadə edir ki, regionda regionda əhalinin məşqulluğu ilə bağlı görülmüş tədbirlər effektli omuşdir.



Maddı məhsul istehsalı sahələrinə yönəldilmiş investisiyaların multiplikasiya effekti. **M**ultiplikasiya göstəricisi regionun məhsul istehsalı (kənd təsərrüfatı, sənaye, tikinti) sahələrinə yönəldilən investisiyaların səmərəliyi səviyyəsinin göstəricisi hesab olunur. Regionun iqtisadiyyat sisteminin fəaliyyətini xarakterizə edən multiplikasiya göstəricisi [17] keçmiş (t-1) dövründə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların artımları hesabına, cari t zamanında regionun iqtisadiyyatının fəaliyyətində istehsal olunan məhsulların nə qədər artmasını göstərir. Naxçıvan DSK-nin məlumatları əsasında aparılmış tədqiqatlar göstərmişdir ki, 2014-2019-cu illərdə maddi məhsul istehsalına yönəldilmiş investisiya artımları 32,6 mln manat təşkil etmiş və investisiya artımlarının hər bir manatı 2015-2020-ci illər ərzində regionda maddi məhsulların istehsalını orta hesabla 11,52 manat artırmışdır. Belə ki, 2014-cü ildə maddi istehsala sahələrinə yönəldilmiş investisiyalar 2013-cü ilə nisbətən (-93,9) maln manat azalmışdır. Nəticədə, 2015-ci ildə hər bir manat azalmış investiyiya hesabına məhsul istehslı (-0,82) manat azalmışdır. Göstərilənlə yanaşı, 2015-ci ildə maddi məhsul istehsalı sahələrinə yönəldilən investisiyaların hər bir manat artımı 2016-cı ildə məhsul istehsalını 1,14 manat, 2016-cı ildə investisiyaların hər bir manat artımı 2017-ci ildə məhsul istehsalını 2,29

manat, 2017-ci ildə investisiyaların hər bir manat artımı 2018-ci ildə 9,78 manat, 2018-ci ildə investisiyaların hər bir manat artımı 2019-cu ildə 17,63 manat, 2019-cu ildə isə investisiyaların hər bir manat artımı 2020-ci ildə 3,25 manat artırmışdır. Beləliklə, regionun maddi isehsal sahələrinə yönəldilmiş investisiyaraın effektivliyi çox yüksəl olmuşdur.

İqtisadi inkişafın davamlığı. Regionun iqtisadiyyatının inkişafının davamlılığı ilk növbədə hər il regionda bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcminin əvvəlki ilə nisbətən artım xüsusiyyətli olması ilə müəyyən edilir. Hesablamalar göstərir ki, tədqiq olunan 2015-2020-ci illərdə hər il faktiki qiymətlərdə məhsul buraxılışının ümumi həcmlərinin əvvəlki ilə nisbətən artımları azalma meyilli olmuş və $\tilde{u}_f = -1{,}180 \cdot t + 108{,}5$ xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla (-1,2)% azalmlşdlr. Həmçinin, hesablamalar göstərir ki, tədqiq olunan 2015-2020-ci illərdə 2020-ci il müqayyisəli qiymətlərində hər il bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcmlərinin əvvəlki ilə nisbətən artımları faktiki qiymətlərdə olduğu kimi azalma meyilli olmuş və $\tilde{u}_m = -1{,}0315 \cdot t + 105{,}91$ xətti tənliyinə üyğun olaraq hər il orta hesabla (-1,0)% azalmışdır. Beləliklə, Naxçıvan regionunda 2015-2020-ci illər dövründə hər il bütün pul-əmtəə kanallarında məhsul buraxılışının ümumi həcmləri əvvəlki ilə nisbətən artım xüsusiyyətlə olsalar da, artımlar azalma meyilli olmuşlar. Hesab edirik ki, artımların azalma meyilli olması gələcək dövrdə regionda iqtisadi inkişafın davamlılığına mənfi təsir göstərə bilər.

İqtisadiyyat sisteminin dayanıqlı təhlükəsiz fəaliyyəti. Ölkələrin (regionların) iqtisadiyyat sistemlərinin dayanıqlı təhlükəsiz fəaliyyətinın birinci əsas şərti xarici ölkələrlə beynəlxalq ticarət əlaqələrində müsbət ixrac-idaxi saldosuna nail olunması təşkil edir. Regionun iqtisadiyyat sisteminin dayanıqlı təhlükəsiz fəaliyyəti beynəlxalq ticarətdə ixrac olnmuş məhsulların idxal olunmuş məhsullara nisbətini ifadə edən əmsallarla qiymətləndirilir. Naxçıvan DSK-nin məlumatları əsasında müəyyən edilmişdir ki, [18] 2015-ci ildə regionun iqtisadiyyat sisteminin dayanıqlı təhlükəsiz fəaliyyəti əmsalı 4,232; 2016-cı ildə 9,499; 2017-ci ildə 11,575; 2018-ci ildə 7,171; 2019-cu ildə 5,949; 2020-ci ildə isə 6,122 səviyyələrində olmuşlar. Beləliklə, 2015-2020-ci illərdə hər il regionun iqtisadiyyat sistemi dayanıqlı təhlükəsiz fəaliyyət göstərmişdir. Hesablamalar göstərir ki, 2015-2020-ci illər ərzində respublikadan xarici ölkə bazarlarına ixrac olunmuş məhsulların həcmi 2494,2 mln $, xarici ölkələrdən respublikadaxili bazarına 372,6 mln $ məhsul idxal edilmişdir. Hesablamalar göstərir ki, tədqiq olunan 2015-2020-ci illəri əhatə edən dövrdə beynəlxalq ticarətdə ixrac olnmuş məhsulların idxal olunmuş məhsullara nisbəti 6,694 təşkil etmişdir. Bu əmsal onu ifadə edir ki, 2015-2020-ci illərdə regionun iqtisadiyyat sisteminin təhlükəsiz fəaliyyəti birinci şərtinə görə tam təmin olunmuşdur.

Muxtar respublikanın müstəqil iqtisadi inkişaf edə bilmə qabiliyyəti. Regionun iqtisadiyyatı sistemi özünü təşkil etmə və öz fəaliyyətini tənzimləmə xüsusiyyətinə malik olmaqla yanaşı, müstəqil inkişaf etmə qabiliyyətinə malik olurlar. Regionun iqtisadiyyatı sistemlərinin müstəqil inkişafetmə qabiliyyətini, region iqtisadiyyatının fəaliyyətində məhsul istehsalının bir vahid artımının hansı qisminin, investisiya olaraq, əsas fondların artımına yönəldilən hissəsini göstərən akselerasiya effekti əmsalı vasitəsilə qiymətləndirilir [19]. Regionun iqtisadiyyatı sisteminin müstəqil inkişafetmə qabiliyyətini ifadə edən α akselerasiya effekti əmsalı, ölkə iqtisadiyyatının fəaliyyətində, keçmiş (t-1) zamanında məhsul istehsalının bir vahid $\Delta Y_{(t-1)}$ $\Delta Y_{(t-1)}$ artımının hansı hissəsinin, cari t zamanında ölkə iqtisadiyyatı sisteminin fəaliyyətinə yönəldilən ölkədaxili investisiyaların $\Delta İ_t$ artımını ifadə edir, yəni: $\alpha = \Delta İ_t / (\Delta Y_{(t-1)})$.

Akselerasiya effekti əmsalının $0 < \alpha < 1{,}0$ qiymətlərində hesab olunur ki, regionda keçmiş (t-1) zamanında məhsul istehsalının bir vahid $\Delta Y_{(t-1)}$ artımının α hissəsi, cari t zamanında



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

regionun iqtisadiyyatına yönəldilən regiondaxili investisiyaların $\Delta İ_t$ artımlarını təşkil etmişdir. Akselerasiya effekti əmsalının $\alpha \leq 1,0$ qiymətlərində isə hesab olunur ki, cari t zamanında regionun iqtisadiyyatına yönəldilən investisiyaların $\Delta İ_t$ artımlarının, keçmiş (t-1) zamanında istehsal olunmuş məhsulların $\Delta Y_{(t-1)}$ artımları ilə əlaqəsi olmamaşdır.

**Nəticə**

Gösrtərilənlərlə yanaşı, qeyd edirik ki, regionun iqtisadiyyatına yönəldilən regiondaxili investisiyaların maliyyə mənbəsinə, regionun iqtisadiyyatı sistemində fəaliyyət göstərən iqtisadiyyat subyektlərinin təsərrüfat fəaliyyətlərində yaranan ümumi mənfəəti ilə yanaşı, ölkə əhalisinin gələcək dövrdə yaşayışlarını təmin etmək məqsədilə, keçmiş dövrdə aldıqları gəlirlərdən qənaət edərək yığdıqları vəsaitləri, həmçinin sahibkarların əsas kapitallarının özllərinə qaytarılan amortizasiya vəsaitləri də təşkil edirlər. Müəyyən zaman dövründə, orta hesabla investisiyaların $\Delta İ_t$ artımının məhsul istehsalının $\Delta Y_{(t-1)}$ artımlarından akselerativ asılılığı $\Delta İ_t = \alpha_0 + \alpha_1 \Delta Y_{(t-1)}$, xətti reqressiya tənliyi formasında araşdırılır. Asılılıqda: $\alpha_1$ akselerasiya effekti əmsalı, regionun iqtisadiyyatının müstəqil inkişafetmə qabiliyyəti göstəricisi olaraq, baxılan zaman dövründə, orta hesabla investisiyaların $\Delta İ_t$ artımlarının, məhsul istehsalının $\Delta Y_{(t-1)}$ artımları hesabından; $\alpha_0$ həddi isə, investisiyaların $\Delta İ_t$ artımlarının, regionun iqtisadiyyatının fəaliyyətində istehsal olunan məhsulların $\Delta Y_{(t-1)}$ dəyişmələrindən asılı olmayan amillər hesabından dəyişməsini göstərirlər. Beləliklə, ölkə iqtisadiyyatının müstəqil inkişaf edə bilməsi qabiliyyətinin qiymətləndirən α akselerasiya effekti əmsalının:

1) $0 < \alpha < 1,0$ qiymətləri şərtində hesab olunur ki, ölkə iqtisadiyyatı sistemi öz fəaliyyətində müstəqil inkişaf edəbilmə qabiliyyətinə malikdir;

2) $\alpha \leq 0$ qiymətləri şərtində hesab olunur ki, ölkə iqtisadiyyatı sistemi öz fəaliyyətində müstəqil inkişaf edəbilmə qabiliyyətinə malik deyil.



Naxçivan DSK-nin məlumatları əsasında aparılmış tədqiqatlar göstərmişdir ki, 2015-2020-ci illər dövründə Naxçıvan Muxtar Respublikasının müstəqil iqtisadi inkişaf edə bilmə qabiliyyəti əmsalı $\Delta İ_{(t-1)} = 0,154 \cdot \Delta Y_t - 4,212$ xətti reqressiya tənliyinə uyğun olaraq 0,154 səviyyəsində olmuşdur. Əmsal onu ifadə edir ki, Muxtar Respublika gələcək dövrdə müstəqil olaraq iqtisadi inkişaf xüsusiyyətinə malikdir.

## Ədəbiyyat

1.Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2019-2023 illər. Azərbaycan DSK, statistik məcmuə 2021 il, səh.18

2. Səfərəli Babayev. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Elm-1999. Mənbə: https://az.wikipedia.org/wiki/Nax%C3%A7%C4%B1van%C4%B1n_iqlimi

3. Naxçıvan DSK. Əmək statistikası. Mənbə: http://statistika.nmr.az/source/labour/index.php

4. Səfərəli Babayev. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Elm-1999; Mənbə: https://az.wikipedia.org/wiki/Nax%C3%A7%C4%B1van%C4%B1n_iqlimi

5. Naxçıvan MR DSK. Əmək statistikası. Mənbə: http://statistika.nmr.az/source/labour/index.php

6. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyyatları. Bakı, Elm, 2010, səh.80; Naxçıvan DSK. Kənd, meşə, balıqçılıq təsərrüfatı. Mənbə: http://statistika.nmr.az/source/agriculture/index.php.

7. Naxçıvan MR DSK. Sənaye sahəsi. Mənbə: http://statistika.nmr.az/source/industry/index.php

8. Naxçıvan MR DSK. Sənaye sahəsi. Mənbə: http://statistika.nmr.az/source/industry/index.php

9. Feyruz Bağırov. Naxçıvanın təbii sərvətləri. Naxçıvan 2008 il.

10. Azərbaycanın Milli Hesabları 2017, statistik məcmuə, rəsmi nəşr, səh.120; 2020, səh.109; Milli hesablar sistemi və tədiyə balansı 2021. https://www.stat.gov.az/source/ system_ nat_accounts/

11. Azərbaycan DSK. İqtisadi rayonlar üzrə istehlak məhsullarının və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri. Mənbvə: https://www.stat.gov.az/source/price_tarif/

12. Azərbaycan DSK. Milli Hesablar Azərbaycanın Milli Hesabları 2017, statistik məcmuə, rəsmi nəşr, səh.120; 2020, səh.109; Milli hesablar sistemi və tədiyə balansı 2021. Mənbə: https://www.stat.gov.az/ source/system_nat_accounts/; Sənaye. Regionlar üzrə sənaye məhsulunun

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

(işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat). https://www.stat.gov.az/source/industry/; Tikinti. İqtisadi rayonlar üzrə tikinti müəssisələrinin əsas göstəriciləri. Mənbə: https://www.stat.gov.az/ source/ construction/; Azərbaycan DSK. Azərbaycanın Regionları. Statistik məcmuə, rəsmi nəşr, İqtisad rayonların əsas sosial-iqtisadi göstəriciləri 2013, 2014, 2015, 2013, 2017, 2018, 2019, 2020; Naxçıvan DSK. Makroiqtisadi göstəricilər. Mənbə: http://statistika.nmr.az/macroeconomy/index.php?page=11- http://statistika.nmr.az/macroeconomy/index.php?page=59&estat=archive&topic=30

13.Azərbaycan DSK. Azərbayanın statistik göstəriciləri 2020, səh.376; Naxçıvan DSK. Makroiqtisadi göstəricilər. http://statistika.nmr.az/macroeconomy/index.php?page=11- http://statistika.nmr.az/ macroeconomy/index.php?page=59&estat=archive&topic=30

14. Azərbaycan DSK. Azərbaycanin Milli hesabları 2020. Statistik məcmuə, rəsmi nəşr, səh. 121

15. Naxçıvan MR DSK. Tikinti sahəsi. Mənbə: http://statistika.nmr.az/source/construction/ index.php

16. Naxçıvan DSK. Əmək statistikası. Mənbə: http://statistika.nmr.az/source/labour/index.php

17. БСЭ. Третье издание. Том 17. Москва. Изд. «Советская Энциклопедия», 1974 г, səh. 316-317.

18. Naxçıvan DSK. Naxçıvam Muxtar Respublikasının makroiqtisadi göstəriciləri. Mənbə: http://statistika.nmr.az/ macroeconomy/index.php?page=11-83

19. Əyyubov M.R. Ölkə iqtisadiyyat sisteminin müstəqil inkişafetmə qabiliyyətinin qiymətləndi-rilməsi. Azərbaycan Milli Elimlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, 2017-3 (may-iyun), səh. 8-18.

***Мазаддин Рауф оглы Эйюбов***
***Институт экономики НАНА, ведущий научный сотрудник, к.е.н.***
***электронная почта: mazaddin.eyyubov@gmail.com.***

**_Методология оценки эффективности использование экономического потенциала Нахичеванской Автономной Республики на Араксе_**



**_Резюме_**

*Целью проведенных исследований является оценка эффективности использования экономического потенциала регионов Азербайджана в связи с созданием механизма самофинансирования и покрытия собственных расходов в связи с переводом экономических систем на полностью хозяйственный счет на основе признания их способности к самостоятельному развитию и снижению нагрузки на бюджет Азербайджанской Республики на предстоящий период. К методологии: Общая Теория систем, системный анализ. Прикладное значение: в будущем может быть использован при формировании стратегических направлений экономического развития Нахчыванской Автономной Республики. Результат: Нахчыванская Автономная Республика в предстоящий период имеет самостоятельный характер экономического развития. Оригинальность и научная новизна исследования: впервые проведенное в Институте экономики НАНА исследование "эффективность использования экономического потенциала в экономических и административных районах Азербайджана" охватывает Нахчыванский экономический район. Была оценена эффективность использования экономического потенциала Нахчыванской Автономной Республики в связи с переводом ее на полный хозяйственный счет, созданием механизма самофинансирования и оплаты собственных расходов. Методология исследований была разработана автором и апробирована на основе официальных статистических данных, опубликованных Государственным статистическим комитетом Азербайджанской Республики и Государственным комитетом статистики Нахчыванской Автономной республики за 2017-2019 годы.*

***Ключевые слова:*** *экономический потенциал, занятое население, коэффициент демографической нагрузки занятого населения, продолжительное развития, безопасное функционирование экономической системы, способность к саморазвитию*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**_Mazaddin Rauf Ayyubov_**
**_Institute of Economics of ANAS, Leading Researcher,_**
**_Email: mazaddin.eyyubov@gmail.com._**

**_Methodology for assessing the effectiveness of the use of the economic potential of the Nakhichevan Autonomous Republic on the Araks_**

**_Summary_**

*The purpose of the research is to assess the effectiveness of the use of the economic potential of the region in relation to self-financing and the creation of its own expenditure on the basis of the ability of the economic systems of the regions of Azerbaijan to develop independently and to reduce the burden of the Dalat budget of the Republic Methodology: General Theory of systems, systematic analysis. Importance of application: it can be used in forming strategic directions of economic development of the Autonomous Republic in future period. Conclusion: Noxcivon the Autonomous Republic has the feature of independent economic development in the future period. Originality / value: it covers Noxcivon economic region of the research on "effectiveness of using economic potential in economic and administrative regions of Azerbaijan" carried out for the first time at the Institute of economics of Anas. Noxcivon the effectiveness of the use of the economic potential of the Autonomous Republic in connection with self-financing and the creation of its own expenditure was assessed in connection with the transfer of the economy system to the full economy of the Republic on the basis of its ability to develop independently. The methodology of the research was developed by the author and based on the official statistical data published by the Dalat Statistical Committee of the Republic of Azerbaijan and the State Statistical Committee of the Autonomous Republic of Azerbaijan for 2017-2019. The purpose of the research is to assess the effectiveness of the use of the economic potential of the region in relation to self-financing and the creation of its own expenditure on the basis of the ability of the economic systems of the regions of Azerbaijan to develop independently and to reduce the burden of the Dalat budget of the Republic Methodology: General Theory of systems, systematic analysis. Importance of application: it can be used in forming strategic directions of economic development of the Autonomous Republic in future period. Conclusion: Noxcivon the Autonomous Republic has the feature of independent economic development in the future period. Originality / value: it covers Noxcivon economic region of the research on "effectiveness of using economic potential in economic and administrative regions of Azerbaijan" carried out for the first time at the Institute of economics of Anas. Noxcivon the effectiveness of the use of the economic potential of the Autonomous Republic in connection with self-financing and the creation of its own expenditure was assessed in connection with the transfer of the economy system to the full economy of the Republic on the basis of its ability to develop independently. The methodology of the research was developed by the author and based on the official statistical data published by the Dalat Statistical Committee of the Republic of Azerbaijan and the State Statistical Committee of the Autonomous Republic of Azerbaijan for 2017-2019.*

***Key words****: economic potential, employed population, demographic load ratio of the employed population, long-term development, safe functioning of the economic system, self-development ability.*



**_Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov_**
**_Daxil olub: 16.06.2021._**
**_Çapa qəbul olunub: 25.06.2021._**

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*